**1)Məcburi köçkün azadolması**

Dövlət ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan “Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq məcburi köçkün statusu olan Azərbaycan Respublikasının vətəndaşları

- Məcburi köçkün vəsiqəsi (arayış qəbul edilmir)

**2)Sağlamlıq imkanları məhdud olan şəxslər üçün azadolma**

Orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər və peşə təhsili müəssisələrində təhsil alan əlilliyi olan şəxslər

- Forma 88 (orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər)

**3)Şəhid ailəsi azadolması**

- Şəhid ailəsi vəsiqəsi (ana, ata, həyat yoldaşı, övlad, bacı və qardaş)

**4)Müharibə veteranı azadolması**

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etdiyinə görə “Müharibə veteranı” adı almış şəxslər

- Müharibə veteranı vəsiqəsi

**5)Müharibə veteranı övladı azadolması**

Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqları

- Forma 88 (əlillik səbəbi: Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar)

**6)Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün azadolma**

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər

- Hər iki valideyn vəfat edibsə - hər iki valideynin ölüm haqqında şəhadətnaməsi və tələbənin doğum haqqında şəhadətnaməsi
- Valideynlərdən biri vəfat etmiş və digər valideynin orqanizmin funksiyalarının 61-100 faiz pozulması halı mövcuddursa – ölüm haqqında şəhadətnamə, forma 88 (orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə) və tələbənin doğum haqqında şəhadətnaməsi

**Bu azadolma ilə təhsil alan tələbələr 23 yaşına qədər təhsil xərcindən azad olunurlar.*